**UOT: 792.**

**Çimnaz Lətifova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: cimnazlatifova26@gmail.com**

# AKTRİSA MƏRZİYƏ DAVUDOVA: DÖVR, TEATR MÜHİTİ VƏ SƏNƏTKAR İMİCİ

XX əsr Azərbaycan teatrının peşəkarlıqdan professionallığa keçid dövrü idi və aktrisalar bu dövrdə olmadığına görə, səhnədə qadın rollarını əsasən kişilər ifa edirdilər. Qadın rolunu ifa etmək elə də asan məsələ deyildi, buna görə də aktyorlar bir neçə qadın rolu oynadıqdan sonra tamaşaçı qarşısına çıxmaqdan imtina edirdilər. Qadın aktrisaların olmaması həm tamaşanın ümumi gedişatına mənfi təsir göstərirdi, həm də aktyorları çıxılmaz vəziyyətə salırdı.

XX əsrin əvvəllərindən başlayaraq teatrda qadın aktrisalar meydana gəlməyə başlayır. Teatr naminə hər cür çətinlikləri gözə alan qadınlar bütün sədləri qıraraq özlərini sənət meydanına atırlar. 1901-ci ildə Həştərxanda anadan olmuş Mərziyə Davudova köhnə ənənələrə məhəl qoymadan, 16 yaşında ikən Həştərxanda "Birinci teatr" adlı ikipərdəli tamaşada Əfifə rolunda səhnəyə çıxır. Həmin tamaşada onu görən Hüseyn Ərəblinskinin dəvətilə Azərbaycan teatrında fəaliyyətə başlayan Mərziyə Davudova milli dram nümunələri ilə yanaşı, rus və qərb ədəbiyyatının unudulmaz qəhrəmanlarına böyük məharətlə "həyat" verir.

Mərziyə Davudova teatrın çıxılmaz vəziyyətdə olduğu bir vaxtda səhnəyə çıxmışdı. Düzdür, hələ ondan əvvəl Azərbaycan səhnəsində Əzizə xanım və qızı Sona xanım fəaliyyətə başlamışdılar, ancaq Mərziyə Davudovanın teatr fəaliyyəti özünəməxsusluğu, orijinallığı, yeniliyi ilə tez bir zamanda bütün diqqətləri öz üzərinə cəmləməyi bacarır.

Aktrisanın xarici görünüşü ilə daxili dünyası arasında böyük həmahənglik var idi və biz bunu onun oynadığı rollar haqqında oxuduğumuz məqalə və resenziyalarda da görürük. O, sənət fədaisi idi və bunun üçün şəxsi həyatını da "qurban vermişdi". Onun yaradıcılığında sərhəd məfhumu yoxdur. İstər klassik dram, istər faciə, komediya janrında o, unikal, təkrarolunmaz, bənzərsiz, koloritli qadın obrazlarına həyat verib. Onun ifasında bir-birindən fərqli və rəngarəng

V.Şekspir, H.Cavid, C.Cabbarlı, M.Hüseynin əsərlərindən müxtəlif obrazlar yer alır. O, hərdən Xumarlanırdı, hərdən isə Otellonun qəzəbindən bəzən sakit, bəzənsə gur səslə hayqıran Dezdemonaya çevrilirdi.

Mərziyə Davudova Azərbaycan səhnəsində Şekspirin "Maqbet" əsərində Ledi Maqbet, "Hamlet"də Gertruda, "Otello"da Dezdemona, H.Cavidin "Şeyx Sənan"da Xumar və Əzra, "İblis"də Xavər, Rəna, "Uçurum"da Anjel, "Knyaz"-da Jasmen rollarını canlandırıb. Adları çəkilən bütün obrazlar bir-birindən fərqli, mürəkkəb, çətin və ağır qadın obrazlarıdır. Aktrisa bu obrazları bəzən oxşar, bəzənsə tamamilə fərqli üslublarda ifa edib.

Mərziyə Davudovanın Azərbaycan səhnəsində yaratdığı bir-birindən fərqli mürəkkəb obrazlar onun ifasında yeni çalarlar, yeni rənglər əldə edirdi. Daha sonralar onun oynadığı rolları Azərbaycan səhnəsində ifa edən Hökümə Qurbanova öz xatirələrində qeyd edir ki, "Mən onun ifa etdiyi obrazlarda səhnəyə çıxarkən həmişə tərəddüd edirdim" (4). Mərziyə Davudova öz müasirlərinə böyük qayğıyla yanaşan sənətkarlardan olub. Onun ən böyük amalı Azərbaycan teatrının inkişafı və bu istiqamətdə lazım olan bütün addımları atmaq idi. Buna görə də o, bütün ömrünü teatrın inkişafına həsr edib.

Mərziyə Davudovanın yaradıcılığını hələ sağlığında Hüseyn Cavidin qızı Turan Cavid araşdırıb. Turan Cavid Mərziyə Davudovanın oynadığı rolları araşdırarkən həmin obrazlardakı oxşar və fərqli cəhətləri öz monoqrafiyasında qeyd edib. Monoqrafiyanı dəyərli edən digər cəhətsə Mərziyə xanımın özünün Turan Cavidlə yanaşı həmin iş üzərində işləməsi, xatirələrini də kitabda paylaşmasıdır. Daha sonralar da aktisa haqqında çoxlu sayda elmi-publisist məqalə, resenziya, monoqrafiya və araşdırmalar aparılıb.

**Ədəbiyyat siyahısı:**

1.Rəhimli İ. Azərbaycan teatr tarixi, Bakı, Çaşıoğlu, 2004.
2.Rəhimli İ.Azərbaycan teatr tarixi V cilddə, Bakı, Şərq-Qərb, 2018.
3.Rəhimli İ. Mərziyə Davudova. Bakı: Şərq-Qərb, 2017.
4.Turan Cavid. Mərziyə Davudova. Diplom işi. Bakı: 1950

**Tezisin redaksiyaya daxil olma tarixi: 11. 01. 2022**
**Tezisi çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim Elçin Cəfərov**